

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 5 (23.417)

*11 yanvar 2020-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## G.R.Şahməmmədovanın Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Ümumi şöbəsinin müdiri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Gözəl Rəşadət qızı Şahməmmədova Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Ümumi şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 yanvar 2020-ci il*

## Kollegiya iclasları keçirilib



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində keçirilən kollegiya iclasını ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, ötən dövr ərzində nazirlik əsas fəaliyyət istiqamətlərindən olan hüquqi maarifləndirmə, hüquqi təbliğat və profilaktika işlərini davam etdirib. Muxtar respublikanın şəhər və rayonlarında bələdiyyə fəaliyyəti ilə bağlı 16, notariat və qeydiyyat fəaliyyəti ilə bağlı 8, icra və probasiya xidməti ilə bağlı 6 tədbir keçirilib.

Hesabat ilində nazirliyin rəsmi elektron səhifəsi yenilənərək istifadəyə verilib. Hüquqi Aktların Dövlət Reyestrinə 142 hüquqi akt daxil edilib ki, onlardan da 75-i normativ, 67-si isə qeyri-normativ hüquqi aktlardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə hamiliyə götürülmüş müvafiq ixtisaslar üzrə tələbələr nazirlikdə təcrübə keçiblər.

Diqqətə çatdırılıb ki, probasiya sahəsi üzrə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş 6 məhkuma elektron nəzarət vasitəsi tətbiq olunmağa başlanıb, 1 məhkuma tətbiq edilən elektron nəzarət vasitəsi cəzanın müddəti başa çatdığından götürülüb. Hazırda 5 məhkuma elektron sistemlə gündəlik nəzarət edilir. Görülən qabaqlayıcı profilaktik tədbirlər və maarifləndirmə nəticəsində həmin məhkumlarla bağlı hər hansı qanun pozuntusu aşkar edilməyib.

Vurğulanıb ki, Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində “Elektron məhkəmə” və “Elektron icra” sistemlərinin muxtar respublikamızda tətbiqi, ekspertiza mərkəzinə alınmış müasir avadanlıqlar dövlət qayğısının bariz nümunəsidir.

Bildirilib ki, Qeydiyyat və notariat şöbəsi tərəfindən 2019-cu ildə 6 qeyri-kommersiya hüquqi şəxs qeydiyyata alınıb, 16 qeyri-kommersiya hüquqi şəxsin və 1 mətbu nəşrin reyestrinə dəyişiklik edilib, 7 qeyri-kommersiya hüquqi şəxs təsisçilərin ərizəsinə əsasən 1 qeyri-kommersiya hüquqi şəxs isə məhkəmə qərarı ilə ləğv edildiyindən dövlət reyestrindən çıxarılıb. 1 qrant və 63 subqrant müqaviləsi qeydə alınıb.

Nazir qeyd edib ki, Məhkəmə Ekspertizası Mərkəzinə 249 ekspertiza işi daxil olub. İcra edilmiş işlərdən 213-nə rəy, 19-na isə arayış verilib, 16 ekspertiza işi icra olunmadan geri qaytarılıb, 1 işin icraatı vəsatət verildiyindən dayandırılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, qarşıda quran vəzifələr müəyyənləşdirilib.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Hicran Rüstəmov açaraq bildirib ki, 2019-cu il ərzində müasir tələblər əsasında inşa olunmuş yeni obyektlər istifadəyə verilib, sosial problemlərin həllinə xidmət edən infrastruktur sahələri yaradılıb.

Qeyd olunub ki, ötən il komitənin xətti ilə 187 milyon 979 min manatlıq inşaat işləri yerinə yetirilib.

Vurğulanıb ki, Şərur rayonunun Kərimbəyli, Qışlaqabbas, Xələc, Muğanlı, Alışar, Yeni Havuş, Babək rayonunun Kültəpə, Gülşənabad, Şahbuz rayonunun Türkeş, Ordubad rayonunun Dəstə kəndlərində kənd mərkəzlərinin tikintisi və ya yenidən qurulması işləri başa çatdırılaraq istifadəyə verilib, Şərur rayonunun Muğancıq Mehrab, Məmmədsabir, Ordubad rayonunun Vənənd kəndlərində isə kənd mərkəzlərinin tikintisi davam etdirilir. Muxtar respublikanın 12 kəndində müasir xidmət mərkəzi istifadəyə verilib. Hazırda Şərur rayonunun Muğancıq Mehrab, Məmmədsabir, Ordubad rayonunun Vənənd kəndlərində xidmət mərkəzlərinin tikintisi davam etdirilir.

Diqqətə çatdırılıb ki, qeyd edilən dövrdə Naxçıvan şəhərində altı yaşayış binası yenidən qurularaq, Kəngərli, Sədərək, Babək rayonlarının hər birində bir yaşayış binası tikilərək istifadəyə verilib. Həmçinin Naxçıvan şəhərində iki, Şərur, Şahbuz və Ordubad şəhərlərinin hər birində isə bir yaşayış binasının inşası davam etdirilib.

Komitə sədri bildirib ki, 2019-cu il ərzində muxtar respublika üzrə 93,9 kilometr uzunluğunda yeni asfalt yol salınıb, 3 körpünün tikintisi, 3 körpünün əsaslı təmiri, Şərur rayonunun Kərimbəyli, Muğanlı, Yeni Havuş, Xələc, Qışlaqabbas, Alışar, Babək rayonunun Kültəpə, Gülşənabad, Şahbuz rayonunun Badamlı, Türkeş kəndlərində avtomobil yollarının və Ordubad rayonunun Anaqut, Dəstə, Kəngərli rayonunun Böyükdüz kəndlərinin daxili avtomobil yollarının yenidən qurulması işləri də başa çatdırılıb. Eyni zamanda Culfa-Ordubad magistral avtomobil yolunun, Ordubad rayonunun Vənənd, Şərur rayonunun Muğancıq Mehrab kəndlərinin və Şərur şəhərinə gedən yolun giriş hissəsinin yenidən qurulması işləri davam etdirilib.

Sonra rayonlarda həyata keçirilən tikinti-quruculuq və abadlıq tədbirləri haqqında çıxışlar dinlənilib.

## Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində 2019-cu ildə görülmüş işlər və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasında qarşıya qoyulan vəzifələr barədə keçirilən kollegiya iclasını Baş Nazirin müavini - Maliyyə naziri Səbuhi Məmmədov açaraq geniş məruzə edib. Bildirilib ki, 2019-cu ildə Naxçıvan Muxtar Respublikasında elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və idman sahəsində həyata keçirilən dövlət siyasətinin dəstəklənməsi, muxtar respublikada müasir infrastrukturun qurulması, yeni yolların inşası, içməli su və kanalizasiya sistemlərinin yaradılması məqsədilə etibarlı maliyyəşmənin təmin edilməsinə nail olunub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin 2019-cu ildə gəlirləri 83 milyon 340 min manat təyinata qarşı 96 milyon 24 min 248 manat və ya 115,2 faiz icra edilməklə büdcəyə 12 milyon 684 min 248 manat çox vəsait daxil olub. Bəhs olunan dövrdə büdcə xərclərinin 76,4 faizi cari, 23,6 faizi isə əsaslı xərclərə yönəldilib.

Səbuhi Məmmədov bildirib ki, 2019-cu il dekabr ayının 21-də keçirilmiş beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasında “Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu təsdiq edilib. Büdcə tərtib olunarkən muxtar respublikanın inkişaf prioritetləri, sosial-iqtisadi siyasət hədəfləri, mühüm dövlət proqramlarının və infrastruktur layihələrinin icrasına etibarlı maliyyə mühitinin təmin olunması diqqətdə saxlanılıb.

Nazirliyin aparat rəhbəri Tural Şirəlizadə çıxışında “Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin 2020-ci il üçün iş planı”nın layihəsi barədə danışıb. Bildirilib ki, “Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 dekabr tarixli Fərmanında nazirliyə verilmiş tapşırıqların icrası üçün müvafiq tədbirlər planı tərtib olunub.

Sonra müzakirələr olub.

* * *



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən iclası nazir Nicat Babayev açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq muxtar respublikanın əmək bazarı müntəzəm təhlil edilir. Nəticələrə əsasən müxtəlif ixtisaslar üzrə peşə kursları təşkil edilir, əmək yarmarkaları keçirilir. Nazir qeyd edib ki, ötən dövr ərzində ailə təsərrüfatlarının inkişafı və özünüməşğulluq proqramının icrası aztəminatlı ailələrin, ünvanlı dövlət sosial yardımı alanların sayını azaldıb.

Vurğulanıb ki, ötən il həyata keçirilən nəzarət tədbirləri çərçivəsində 355 sahibkarlıq obyektində 43 işçinin əməkhaqlarının real göstərilməsinə nail olunub. Həmçinin sentyabr ayının 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqı məbləğinin 250 manata çatdırılmasından sonra yaradılan komissiyaların nəzarətinə əsasən minimum həddən aşağı olduğu müəyyən edilən 539 işçinin əməkhaqlarının artırılması təmin edilib.

Bildirilib ki, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq aidiyyəti dövlət orqanları ilə birgə sağlamlıq imkanları məhdud uşaqlara tolerant təhsil mühitinin formalaşdırılması məqsədilə təhsil müəssisələrində monitorinqlər aparılır, maarifləndirici görüşlər keçirilir. Onların ümumtəhsil məktəblərində fəaliyyət göstərən hazırlıq qruplarına və defektoloji bölmələrə, həmçinin məktəbdənkənar müəssisələrin dərnəklərinə, musiqi məktəblərinə, idmanın müxtəlif növləri üzrə qruplara və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müvafiq bölmələrinə cəlbi diqqətdə saxlanılır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya iclasında çıxış edən nazir Azad Cabbarov bildirib ki, 2019-cu il ərzində yeniyetmə və gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi məqsədilə tədbirlərin keçirilməsi diqqətdə saxlanılıb.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar keçirilən tədbirlərdə gənclərin iştirakı təmin olunub.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyi ilə əlaqədar muxtar respublikada “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalı, futbol üzrə Azərbaycan kubokunun final oyunu, kikboksinq, karate-do və cüdo üzrə beynəlxalq turnirlər, “Heydər Əliyev kuboku” uğrunda yeniyetmə və gənclər arasında turnir keçirilib. Türkiyə və Naxçıvan alpinistlərinin, əcnəbi tələbələrin iştirakı ilə Haçadağa yürüş təşkil olunub, dövlət və özəl təşkilatlar arasında futzal liqası, Naxçıvan Muxtar Respublika XVII Futbol çempionatının II dövrə oyunları, XVIII Futbol çempionatının I dövrə oyunları təşkil edilib. “İdman hamı üçün” şüarı altında “Azərbaycan Olimpiya Odisseyası” adlı tədbir, muxtar respublikanın bədən tərbiyəsi müəllimlərinin “D” kateqoriyalı məşqçi kursu, futbol üzrə şəhər və rayon birincilikləri, futbol hakimləri üçün seminarlar, Şərur rayon Ağır Atletika bölməsində bodibildinq üzrə Bakı şəhərindən dəvət olunmuş məşqçi-müəllim tərəfindən idmançılar üçün seminar və süni divara dırmanma üzrə təlim-məşq toplanışları, “Nakhchivan CUP-95” beynəlxalq turniri keçirilib.

Diqqətə çatdırılıb ki, 2019-cu il ərzində idmançılarımız ölkə birinciliklərində 179, beynəlxalq turnirlərdə 165, dünya çempionatında 5, Avropa çempionatında 20 medal olmaqla, cəmi 369 medal qazanıblar.

Sonra məruzə ətrafında müzakirələr olub.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 2019-cu ildə görülmüş işlər və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasında qarşıya qoyulan vəzifələr ilə əlaqədar keçirilən kollegiya iclasında komitə sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, 2019-cu il 1 iyul tarixə olan məlumata əsasən muxtar respublikada 97 min 358 ailə vardır. Bu da əvvəlki illə müqayisədə 699 və ya 0,72 faiz çoxdur.

Qeyd olunub ki, komitənin təşkilatçılığı ilə "Gələcəyini planlaşdır" adlı 7, "Öz biznesinə başla və onu inkişaf etdir" adlı 4 təlim keçirilib. Qrant layihənin sonunda qadınlara 43 min 700 manat məbləğində sərmayə kapitalı verilib.

Vurğulanıb ki, ötən il qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışda, ümumilikdə, 378 istedadlı şəxsin 22133,50 manat dəyərində 2042 əl işi satılıb.

2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması ilə əlaqədar Naxçıvan Biznes Mərkəzində "Naxçıvan qadınlarının sahibkarlıq fəaliyyəti: əzmkarlıqdan nailiyyətə" mövzusunda 145 qadının iştirakı ilə tədbir keçirilib.

Bildirilib ki, muxtar respublikada 1330 oğlan, 717 qız olmaqla, 1847 nəfər 18 yaşadək sağlamlıq imkanları məhdud uşaq vardır. 74 uşaq məktəbəqədər, məktəb, məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə yönləndirilib.

Məlumat verilib ki, hesabat dövründə 20 uşaq müəssisəsində və valideyn himayəsindən məhrum olan 12 uşağın yaşadığı evdə monitorinq keçirilib.

"Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"na uyğun olaraq aidiyyəti orqanlar tərəfindən cari ilin ötən dövrü ərzində 24 min 489 uşaq haqqında məlumatların həmin bankda qeydiyyatı aparılıb.

Əlamətdar və müəyyən təqvim günlərində uşaqlarla bağlı müsabiqələr, tədbirlər keçirilib, qalib komandalara və fərqlənən uşaqlara diplom və fəxri fərmanlar təqdim olunub.

Ramilə Seyidova bildirib ki, Bilik Günü ilə əlaqədar muxtar respublikanın şəhər və rayonlarında yaşayan aztəminatlı ailələrdən olan 42 uşağa məktəb paltarı və dərs ləvazimatları, mövsümlə əlaqədar qış geyimi verilib.

Sonra çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində keçirilən kollegiya iclasını xidmətin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Azər Nağıyev açaraq bildirib ki, ötən il muxtar respublikada özəl sektorun inkişafına dövlət dəstəyi nəticəsində makroiqtisadi göstəricilər üzrə artım dinamikası davam edib, nəticədə, dövlət büdcəsi üzrə proqnozlar artıqlaması ilə icra olunub. Belə ki, hesabat ilində vergi orqanları üzrə müəyyən edilmiş proqnoz 115,4 faiz icra olunub. Bu da 2018-ci illə müqayisədə 10 faiz çoxdur.

2019-cu il üzrə müəyyənləşdirilmiş proqnozlar yerli vergi orqanlarının hər biri üzrə artıqlaması ilə icra edilib.

Diqqətə çatdırılıb ki, muxtar respublika üzrə büdcəyə daxil olmuş vəsaitlərin 35,3 faizi dövlət, 64,7 faizi isə özəl sektorun payına düşüb. Özəl sektor üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,9 faiz artıb.

Hesabat dövründə Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə toplanan vəsait 143,4 faiz, İşsizlikdən Sığorta Fondunun büdcəsinə toplanan vəsait 136,9 faiz icra olunub.

"Bir pəncərə" qeydiyyat sistemi vasitəsilə 39 kommersiya, 37 qeyri-kommersiya hüquqi şəxs dövlət qeydiyyatına alınıb ki, 1-i 100 faiz xarici investisiyalı müəssisə, 2-si isə birgə mülkiyyətli hüquqi şəxslər olub. Həmçinin bu dövrdə 3599 fiziki şəxs sahibkarlıq uçotuna alınıb.

Dövlət Vergi Xidməti rəisinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov çıxışında diqqətə çatdırıb ki, ötən il ərzində daxil olan 5101 yazılı müraciət cavablandırılıb.

Bu dövrdə nağdsız ödənişlərin həcminin artırılması məqsədilə "Nağdsız ödəyin, hədiyyə qazanın" adlı həvəsləndirici tədbir keçirilib, 398 vətəndaşa 25 min manatlıq müxtəlif hədiyyələr təqdim edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



*Naxçıvan Muxtar Respublikasının Turizm Departamentində keçirilən kollegiya iclasında direktor Əkbər Novruzov məruzə ilə çıxış edib.*

Vurğulanıb ki, ötən dövrdə departamentin əməkdaşları tərəfindən Şahbuz rayonunun Ağbulaq və Kükü kəndlərində turist qəbul edə biləcək və gələcəkdə hostel kimi istifadə olunacaq evləri müəyyənləşdirmək məqsədilə fərdi yaşayış evlərinə baxış keçirilib. Ağbulaq kəndində 3, Kükü kəndində isə 5 evin turistlərin istifadəsinə yararlı olduğu müəyyənləşdirilib, rayonun Biçənək kəndində kənd turizminin inkişaf etdirilməsi məqsədilə kənd sakinləri ilə maarifləndirici görüş təşkil olunub. Həmin kəndlərdə turist qəbul edəcək hostellərin təqdimatı keçirilib, sertifikatlar, eləcə də VÖEN-lər verilib. Həmçinin Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılaraq həmin evlər haqqında ümumi məlumat və fotoşəkillər yerləşdirilib.

Bildirilib ki, 23 aprel 2019-cu il tarixdə Bakı şəhərində keçirilən 3-cü Qlobal Sağlamlıq Turizm Forumu və Qlobal Sağlamlıq Turizm Şurasının 5-ci Assambleyasında Naxçıvan Muxtar Respublikasının turizm potensialı haqqında forum iştirakçılarına geniş məlumat verilib. Forumda Naxçıvan Muxtar Respublikasının turizm potensialını əks etdirən videoçarx nümayiş olunub, təbliğat materiallarından ibarət hədiyyə paketləri xarici ölkə nümayəndələrinə təqdim edilib.

Hesabat dövründə Gürcüstan Respublikasının Batumi şəhərində keçirilən "Beynəlxalq Expo Batumi-2019" Turizm və Otel Avadanlıqları Sərgisində, İran İslam Respublikasının Ərdəbil şəhərində keçirilən II Səhiyyə Turizmi Konfransı və Sərgisində, Türkiyənin Van şəhərində keçirilən 10-cu Van Şərqi Anadolu Beynəlxalq Turizm və Səyahət Sərgisində də muxtar respublikanın turizm potensialı geniş şəkildə təbliğ olunub, videoçarxlar göstərilib, turizm təbliğat materialları iştirakçılara təqdim edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



2019-cu ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən yığıncağı cəmiyyətin direktoru Mahir Əliyev açıb. Bildirib ki, ötən il Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 283 min 497 ton müxtəlif təyinatlı yük, yük-sərnişin qatarları vasitəsilə 158 min 875 sərnişin, 181 min 742 kiloqram poçt-baqaj yükü daşınıb.

Qeyd olunub ki, hesabat dövründə Culfa Lokomotiv Deposunda lokomotivlər 44 dəfə texniki baxışdan keçirilib, onlarda 23 cari təmir işləri aparılıb. Vaqon işçi parkının, eləcə də ehtiyat vaqon parkının daim saz vəziyyətdə saxlanılması məqsədilə illik vaqon təmiri planına uyğun olaraq ötən il 154 müxtəliftipli vaqon cari və depo təmiri edilib. Ordubad-Culfa sahəsində hərəkət edən yük-sərnişin qatarlarında dartı vasitəsi kimi istifadə olunması məqsədilə muxtar respublikaya 1 yeni manevr teplovozu gətirilib. Naxçıvan stansiyası ərazisində sərnişin vaqonlarının yuyulması üçün uzunluğu 50 poqonometr olan yolun çəkilişi və hər iki tərəfdən estakada-körpünün quraşdırılması işi başa çatdırılıb, bu ilin birinci rübündə isə məntəqənin lazımi avadanlıqlarla təmin edilməsi nəzərdə tutulub.

Vurğulanıb ki, istismarda olan lokomotivlərdə və sərnişin vaqonlarında profilaktik təmir işləri aparılıb, istilik sistemləri ilə təchiz edilmiş sərnişin vaqonlarının və aralıq stansiyalarda növbətçi otaqların qızdırılması üçün 27,8 ton daş kömür ehtiyatı yaradılıb, əlavə olaraq 60 ton kömürün alınıb gətirilməsi təmin ediləcək.

Diqqətə çatdırılıb ki, 2019-cu ildə cəmiyyət üzrə iqtisadi göstəricilər qənaətbəxş olub. Bu istiqamətdə fəaliyyət 2020-ci ildə də davam etdiriləcək materiala, təbii qaza, elektrik enerjisinə, yanacağa, suya maksimum dərəcədə qənaət olunmasına dair müvafiq tədbirlər görüləcək.

Sonra məruzə ətrafında çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən kollegiya iclasında məruzə ilə çıxış edən komitə sədri, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli vurğulayıb ki, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gömrük xidmətinin modernləşməsi, iş şəraitinin daha da yaxşılaşdırılması diqqətdə saxlanılıb. Sədərək Gömrük İdarəsi üçün 18 hektar ərazidə beynəlxalq standartlara uyğun qurulan müasir kompleksin inşasının qısa vaxtda başa çatdırılması üçün işlər sürətləndirilib. Gömrük orqanlarında Almaniya istehsalı olan 13 yeni rentgen-nəzarəti qurğusunun, vətəndaşların üzərlərində olan malların aşkarlanmasına imkan verən 2 müasir "B-skan" aparatının quraşdırılması gömrük nəzarətinin sürətli və mükəmməl formada həyata keçirilməsinə imkan yaradıb.

Qeyd olunub ki, hesabat dövründə iş prosesinin avtomatlaşdırılması və idarəetmənin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilib, bütün gömrük orqanlarında "Sərhədkeçmə vaxtının ölçülməsi sistemi" tətbiq olunmağa başlanılıb. Şahtaxtı-Poldaşt gömrük sərhəd-buraxılış məntəqəsinin iş vaxtı 4 saat artırılaraq 16 saata çatdırılıb. Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə hərəkət edən sərnişin avtobuslarına tətbiq olunan gömrük nəzarəti tam sadələşdirilib.

Komitə sədri qeyd edib ki, 2019-cu il ərzində muxtar respublika gömrük orqanları tərəfindən dövlət büdcəsinin formalaşdırılması məqsədilə qarşıya qoyulmuş proqnoz-tapşırığa 115,44 faiz əməl olunub. Toplanmış gömrük ödənişləri Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 12,88 faizini təşkil edib.

Qeyd olunub ki, hesabat dövründə 63 ölkə ilə ticarət əməliyyatları aparılıb, ixracın həcmi artıb. İxrac əməliyyatları, əsasən, İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan, Yəmən, Rusiya ilə həyata keçirilib.

Gömrük orqanları tərəfindən xaricdən idxal istiqamətində gətirilən malların, o cümlədən qida məhsullarının keyfiyyətinə ciddi nəzarət olunduğunu vurğulayan komitə sədri bu məqsədlə 40 tona yaxın ərzaq və qeyri-ərzaq məhsulunun muxtar respublika ərazisinə buraxılmadığını, 20 tona yaxın malın isə məhv edildiyini bildirib.

Kollegiya iclasında məruzə ətrafında çıxışlar olub.

* * *



Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev keçirilən kollegiya iclasında məruzə edərək bildirib ki, ötən il əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozan 202 əcnəbi aşkarlanıb ki, onlardan da 197-si barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmamaqla cərimə inzibati tənbeh növü tətbiq edilib, 56 nəfər tətbiq edilən cəriməni ödəmədiyindən ölkə ərazisinə girişinə müvəqqəti məhdudiyyət qoyulub.

Şahin Nəbiyev diqqətə çatdırıb ki, 2019-cu il ərzində qanunvericiliyin tələblərini pozmuş və ölkə hüdudlarından kənara çıxarılması nəzərdə tutulmuş 1 əcnəbi öz ərizəsi əsasında 3 azyaşlı övladı ilə birgə könüllü olaraq xidmətin Qanunsuz miqrantların saxlanılması mərkəzində yerləşdirilib.

Ötən il ərzində xidmətə 10613 müraciət daxil olub ki, həmin müraciətlərdən 8624-ü əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlıdır.

2019-cu ildə əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı xidmətə 1298, daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı 16, müvəqqəti yaşama icazəsinin yenidən rəsmiləşdirilməsi ilə bağlı 9, əcnəbilərin Naxçıvan Muxtar Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin verilməsi ilə bağlı 55, müvəqqətiolma müddətinin uzadılması ilə bağlı 1, Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar isə 606 müraciət daxil olub. Həmin müraciətlərin icrası mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilib.

Xidmət rəisi bildirib ki, ötən il ərzində muxtar respublikada 2 nəfər Azərbaycan vətəndaşlığına qəbul olunub, 1 nəfərin isə vətəndaşlığı bərpa edilib.

Sonra məruzə ətrafında müzakirələr olub.

* * *



Dövlət Baytarlıq Xidmətində keçirilən iclası xidmətin rəisi Vəli Novruzov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə təsdiq edilmiş 2019-cu il üçün "Epizootiya əleyhinə mübarizə və müalicə-profilaktik tədbirlər planı"na uyğun olaraq muxtar respublikanın şəhər və rayonlarında heyvanlar arasında iti gedişli infeksion xəstəliklərdən peyvəndləmə tədbirləri, sərhədboyu zonalarda heyvan yataqlarında və tövlələrdə dezinfeksiya işləri aparılıb. 2019-cu ildə də süni mayalanma tədbirləri diqqət mərkəzində saxlanılıb, ümumilikdə, 11210 baş inək, düyə və camış süni yolla mayalandırılıb, 7530 baş sağlam bala alınıb. Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması üçün vətəndaşlara, ümumilikdə, 753000 manat məbləğində subsidiya verilib.

Vurğulanıb ki, "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı muxtar respublikada 3775 arıçı sahibkara məxsus 74 min 244 arı ailəsi qeydiyyata alınaraq identikləşdirilib və 742 min 440 manat subsidiya ödənilməsi təmin edilib.

Sonda məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Avtomobil Zavodu muxtar respublika sənayesində mühüm rola malikdir

*10 yaşlı müəssisədə bu il yeni modellərdə avtomobillər istehsal olunacaq*



***Sənaye hər bir ölkədə iqtisadiyyatın aparıcı sahəsi hesab olunur. Çünki bu sahənin inkişafı olmadan iqtisadiyyatda dinamikliyi təmin etmək və bazar tələblərinə uyğun məhsul istehsalına malik olmaq mümkün deyil. Buna görədir ki, ümummilli lider Heydər Əliyev tərəfindən hələ Sovet hakimiyyəti dövründən əsası qoyulmuş sənaye kompleksləri müstəqilliyimizin bərpasından sonrakı dövrdə yenidən qurulmuş, dövrün tələblərinə uyğun yeni istehsal sənayesi sahələri yaradılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də maşınqayırma sənayesinin inkişaf etdirilməsidir.***

Ağır sənayenin bir sektoru olan maşınqayırma energetika, elektrotexnika, radioelektronika, cihazqayırma, dəzgahqayırma və digər sahələri özündə birləşdirir. Bu sahə, ümumilikdə, iqtisadiyyatın texniki təminat bazası olaraq istehsalatda əmək məhsuldarlığını yüksəltməklə insanların maddi rifahının yaxşılaşmasına xidmət edir. Bu gün ölkəmizdə maşınqayırma sənayesi müəssisələri iqtisadiyyatın milli gəlir baxımından mühüm sahəsi hesab olunur. Buna görə də maşınqayırma sənayesinin inkişafına hərtərəfli dövlət dəstəyi göstərilir, bu sahədə əlverişli şəraitin yaradılması üçün ardıcıl tədbirlər görülür. Bu işlərin nəticəsidir ki, hazırda Azərbaycan maşınqayırma sənayesi rəqabətqabiliyyətli məhsul istehsalına malikdir. Bu sırada minik və yük avtomobillərinin istehsalı xüsusi əhəmiyyət daşıyır. Ölkəmizdə gedən güclü sənayeləşmə prosesindən geri qalmayan Naxçıvan Muxtar Respublikasında da avtomobil sənayesinin inkişafı diqqət mərkəzindədir. Belə ki, bu il yaradılmasının 10-cu ili tamam olan Naxçıvan Avtomobil Zavodu ötən müddətdə böyük istehlakçı rəğbəti qazanaraq daxili bazarın tələbatının təmin olunmasına öz töhfəsini vermişdir.

Muxtar respublikamızın böyük sənaye müəssisələri arasında xüsusi yeri olan Naxçıvan Avtomobil Zavodu 2010-cu il yanvarın 11-də fəaliyyətə başlayıb. İstehsal sahəsi, satış salonu, anbar və inzibati binadan ibarət olan zavodun 2472 kvadratmetrlik ərazisində Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb.



Zavodun açılışında iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə tədbirləri ölkəmizdə ulu öndərimizlə başlanan işlərin davamı kimi dəyərləndirərək demişdir: ***"Əgər Sovet hakimiyyəti illərində ulu öndərimiz Gəncə Avtomobil Zavodunun qurulması işinə başlamasaydı, müstəqillik illərində isə cənab Prezident həmin zavodun fəaliyyətinin təmin olunmasına şərait yaratmasaydı, indi Naxçıvan Avtomobil Zavodunun qurulması da sual altında ola bilərdi".***

Qeyd edək ki, istehsal prosesi konveyer üsulu ilə təşkil edilən zavod Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da müəssisədə istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Zavodda həm mexaniki, həm də avtomatik sürət qutusu ilə işləyən avtomobillər istehsal edilir. Bundan əlavə, Naxçıvan Avtomobil Zavodunun Naxçıvan və Bakı şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları, həmçinin Şərur və Culfa rayonlarında avtomobillərin servis mərkəzləri fəaliyyət göstərir. Bu da muxtar respublikada müəssisənin istehsal etdiyi avtomobillərə texniki xidmət göstərilməsinə əlverişli şərait yaradır.





Yola saldığımız 2019-cu il Naxçıvan Avtomobil Zavodunda mühüm islahatların aparıldığı il kimi yaddaşlarda qalıb. Belə ki, ötən ilin aprel ayından "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının təşkilatçılığı ilə adıçəkilən müəssisədə kompleks tədbirlər həyata keçirilib. Zavoddakı istehsal prosesinə nəzarət məqsədilə yeni kameralar quraşdırılıb. Culfa servis mərkəzi isə yenidən qurulub. Eyni zamanda müəssisədə yeni marketinq şöbəsi də yaradılıb, maliyyə-mühasibat işinin təkmilləşdirilməsi üçün yeni mikroproqramın qurulması təmin edilib. 2019-cu ildə müəssisə tərəfindən bir neçə dəfə kampaniyalar təşkil olunub. Kampaniya çərçivəsində avtomobillərin ehtiyat hissələrinin satışında 30-50 faiz endirimlər tətbiq edilib. Eyni zamanda zavodun istehsal etdiyi 100-dən çox avtomobil güzəştli şərtlərlə istehlakçılara satılıb.

Xatırladaq ki, 2019-cu ildən başlayaraq Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillərin "Cahan Motors" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomobil salonlarında da satışı təşkil edilib. Bununla yanaşı, zavodda istehsal edilən avtomobillərin ixracı və onların ehtiyat hissələrinin maya dəyərinin aşağı salınması üçün qonşu ölkələrdə bazar araşdırmaları aparılıb. Ötən ilin mühüm tədbirlərindən biri də müəssisənin Çinin "Lifan İndustrial Group" və "FAW İndustrial Group" şirkətləri ilə yeni əməkdaşlıq müqavilələrinin imzalanması olub. Əldə edilmiş razılaşmalara görə artıq Naxçıvan Avtomobil Zavodunda yeni istehsal prosesinə start verilib.

Aldığımız məlumata görə, ilk dəfə olaraq müəssisədə "Lifan X-70" modellərinin istehsalına başlanılıb.

"Lifan X-70" avtomobili texniki göstəricilərinə görə zavodda istehsal olunmuş əvvəlki avtomobillərdən fərqlənir. Müasir dizayn və avro-5 standartlarına uyğun istehsal olunan bu avtomobillər elektronlaşdırılmış sistemlə təmin olunan start-stop, yan güzgülər, təkərlərin havasına nəzarət edən ekran göstəricisi, sensorla açılan baqaj qapılarına malikdir. Ümumilikdə, il ərzində müəssisədə "Lifan İndustrial Group"a aid 360 sedan tipli, 270 SUV tipli, 140 minivan tipli, 40 "Golfcar" tipli, o cümlədən 120 yük maşını və 230 motosikletin istehsal edilməsi nəzərdə tutulub. Bundan əlavə, qısa zamanda müəssisədə "FAW İndustrial Group"a məxsus bir sıra avtomobil modellərinin tanıdılmasına və "FAW T-80" model yük avtomobillərinin istehsalına da başlanılacaq.

Zavodda istehsal olunan nəqliyyat vasitələrinin muxtar respublikada güzəştli şərtlərlə satışı və texniki servis xidməti də planlaşdırılır. Öyrəndik ki, yüksək rəqabətqabiliyyətli avtomobillər istehsal etməyi qarşısına məqsəd qoyan Naxçıvan Avtomobil Zavodu daxili bazarın tələbini ödəməklə yanaşı, istehsal olunan nəqliyyat vasitələrinin digər ölkələrə ixracını da nəzərdə tutur.

Bu gün avtomobil sənayesində tətbiq olunan müasir dizayn, təhlükəsizlik və ekoloji normalara uyğun avtomobillərin istehsal edildiyi Naxçıvan Avtomobil Zavodu inkişafının yeni mərhələsinə qədəm qoyub. Dünyanın nəhəng avtomobil müəssisələrinin müxtəlif təyinatlı və modellərdəki nümunələrinin muxtar respublikamızda istehsal olunması Naxçıvanda maşınqayırma sənayesinin güclənməsinə, eləcə də milli iqtisadiyyatın inkişafına öz töhfəsini verəcək.

**✍ Səbuhi HƏSƏNOV**

# Olimpiada qalibləri mükafatlandırılıb



*Muxtar respublika fənn olimpiadasının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, məktəblilərin muxtar respublika fənn olimpiadalarının keçirilməsi onların ölkə səviyyəli fənn olimpiadalarına hazırlığında və yüksək nəticələr qazanmalarında mühüm əhəmiyyətə malikdir. Bu zaman şagirdlərin əldə etdikləri nəticələr müvafiq fənn müəllimlərinin, eləcə də məktəbin fəaliyyətinin qiymətləndirilməsində əsas meyarlardan biri kimi nəzərə alınır.

Nazir vurğulayıb ki, məktəblilərin muxtar respublika fənn olimpiadası iki mərhələdə təşkil edilib. IX-XI sinif şagirdləri arasında keçirilən olimpiadanın I şəhər və rayon mərhələsində 693 şagird öz biliyini sınayıb, onlardan 225-i yüksək nəticə göstərərək final mərhələsində iştirak etmək hüququ qazanıb. Nəticələrə əsasən dekabrın 21-də keçirilən olimpiadanın final mərhələsində, ümumilikdə, 59 şagird I, II və III yerlərin qalibi olub.

Bildirilib ki, noyabrın 16-da muxtar respublikada ilk dəfə olaraq VII, VIII və IX sinif şagirdləri üçün keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasında muxtar respublikadan 139 məktəbli iştirak edib. Onlardan 14-ü mart ayında keçiriləcək final mərhələsində iştirak etmək hüququ qazanıb. Finalçılardan 3-ü daha yüksək nəticə əldə edərək, ölkə üzrə bütün iştirakçıların ilk 5 faizinin sırasına daxil olub və xüsusi sertifikata layiq görülüb. Olimpiadada ölkə üzrə 7 məktəb ən yüksək nəticə göstərib ki, onlardan 3-ü muxtar respublikanın payına düşür. Həmin təhsil ocaqları – Heydər Əliyev adına tam orta məktəb, Naxçıvan Qarnizonu tam orta məktəbi və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey, eyni zamanda şagirdləri yüksək nəticə göstərən 3 müəllim təşkilatçılar tərəfindən xüsusi sertifikata layiq görülüb.

Tədbirdə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin riyaziyyat müəllimi Günay Ağayeva, Heydər Əliyev adına Hərbi Liseyin kursantı Tapdıq Abbasov çıxış edərək istedadlı şagirdlərin aşkara çıxarılması üçün yaratdığı şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonda qaliblərə diplom, sertifikat və hədiyyələr təqdim olunub. Tədbirdə şagirdlərlə yanaşı, ən yaxşı nəticə göstərən Heydər Əliyev adına tam orta məktəb, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey, Heydər Əliyev adına Hərbi Lisey, Naxçıvan Qarnizonu tam orta məktəbi, eyni zamanda şagirdlərin olimpiadaya hazırlanmasında fəal iştirak edən bir qrup müəllim mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Ötən ilə uğurlarla yekun vurulub

***"Naxçıvan" Universitetində 2019-cu ilin yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.***

Müşavirəni giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə maddi-texniki bazanın müasirləşdirilərək daha da möhkəmləndirilməsi, tədris prosesinin günün tələbləri səviyyəsində qurulması istiqamətində tədbirlər ötən il də davam etdirilib. Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı universitetdə də uğurla icra olunur.

Qeyd edilib ki, hesabat ilində "Naxçıvan" Universitetində 15 ixtisas üzrə 1203 tələbə bakalavr, 7 ixtisas üzrə 20 tələbə magistr, 11 ixtisas üzrə 23 tələbə isə doktorant və dissertant təhsili alıb.



Rektor onu da vurğulayıb ki, ali təhsil ocağında kadr hazırlığı ilə 93 nəfərdən ibarət professor-müəllim heyəti məşğul olur. Onlardan 2-si elmlər doktoru, professor, 21-i fəlsəfə doktoru, dosent, 70-i isə baş müəllim və müəllimdir.

2015-ci ildən etibarən "Naxçıvan" Universitetinin "Elmi əsərlər" jurnalı nəşr olunmaqdadır. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövrü elmi nəşrlərin siyahısı"na daxil edilib, beynəlxalq kod alıb.

Diqqətə çatdırılıb ki, 2019-cu ildə digər sahələrdə olduğu kimi, beynəlxalq əlaqələr üçün də uğurlu olub. Ötən il beynəlxalq təlim və proqramlarda, müxtəlif sərgilərdə iştirak edilib, istər universitetin tanıtımı, istərsə də ikitərəfli əlaqələrin qurulması və inkişafı baxımından mühüm işlər görülüb. Hesabat ilində "Naxçıvan" Universiteti üçün Pakistanın Superior Universiteti, Banqladeşin Daffodil Beynəlxalq Universiteti və Karaçinin "Karaçi" Xarici Əlaqələr Şurası, İqra Universiteti və Qazaxıstanın Əhməd Yasəvi Universiteti ilə müqavilə imzalanaraq yeni əməkdaşlıq əlaqələri qurulub.

İclas məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında keçirilən iclası şuranın sədri Sucaxan Novruzov açıb. Bildirilib ki, şurada 2019-cu ildə 100-dən çox ilk həmkarlar təşkilatı yaradılaraq sıraları möhkəmləndirilib. Bu gün şura 6 muxtar respublika, 10 şəhər və rayon birləşmiş həmkarlar ittifaqı komitəsi və 1587 ilk həmkarlar təşkilatını öz ətrafında birləşdirir. 2019-cu ildə muxtar respublika üzrə 3250 yeni iş yerinin açılması şuranın ittifaq üzvlərinin sayının artmasına səbəb olub.



Qeyd edilib ki, şura Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı ilə birlikdə muxtar respublikada fəaliyyət göstərən ali, ümumi təhsil məktəbləri kollektivlərinin, həmçinin nazirlik, komitə, idarə, müəssisə və təşkilatların əməkdaşlarının, idman federasiyaları kollektivlərinin, aztəminatlı, şəhid və sağlamlıq imkanları məhdud uşaqların ailələri ilə birlikdə Ağbulaq İstirahət Mərkəzində istirahətlərini təşkil edib. 2019-cu ildə 45 təşkilatın 2500-ə yaxın əməkdaşı Ağbulaq İstirahət Mərkəzində istirahət edib.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Bütün istəyinə çatıb

## NAXÇIVAN



Bu gün Yer kürəsi öz məhvərində
Ulu bir diyarla öyünür hər an.
Dünyanın döyünən düz ürəyində
Özünə yer tutub durur Naxçıvan!

Tanrıdan pay gələn sərvət-varı var,
Tükənməz qoynunda gövhəri-zəri.
Bu müqəddəs diyar, bu ulu torpaq
Bəxş edib cahana böyük Heydəri.

Elə o dühayla ən ağır anda
Zamanla üz-üzə durdu Naxçıvan.
Heydər Əliyevin davamçısıyla
Yeni günlərini qurdu Naxçıvan!

Qəlblər ovsunlayıb torpağı, daşı
Şəfəqə bələnir doğulanda dan.
Çox qədim olsa da, tarixdə yaşı
Gənclik libasını geyib Naxçıvan!

Şərqin qapısıdı, Nuhun yurdudu,
Nəsillər yaşayır Gəmiqayada.
Məğrur Əlincədi, qalib ordudu,
Sədərək sınmadı düşmənə, yada.

Mənim Naxçıvanım Odlar Yurdunun
Qeyrət qalasıdı, ər balasıdı.
Günəş qürub çağı büsbütün onun
Çöhrəsi Şahbuzun dağ lalasıdı.

Bol nemət yetirən varlı elləri
Kəhrəba üzümlü, heyva, narlıdı.
Sevinc teknəsidi gələn illəri,
Ordubad bəhrəli, Şərur barlıdı.

Qoynunda çağlayan "Qızlar bulağı"
Sevən ürəklərə məhəbbət ələr.
"Sirab", "Badamlı" tək əvəzsiz varı
Çoxları dərdinin dərmanı bilər.

Memar Əcəminin gənc nəvələri
Tikirlər, qururlar, gözəlləşibdi.
Müstəqil günündən ta üzü bəri
Gözəl məmləkətə bərabər – birdi.

... Ay kimi nur saçar, ulduztək yanar,
Çiçək dənizidi qoynunda hər yan.
Onu hər kim görsə, bəxtəvər sanar,
Bütün istəyinə çatıb Naxçıvan!

**İbrahim YUSİFOĞLU**


*Ordubad rayonu, Dəstə kəndi*


*Babək rayonu, Kültəpə kəndi*


*Şərur rayonu, Yeni Havuş kəndi*


*Şərur rayonu, Kərimbəyli kəndi*


*Şərur rayonu, Muğanlı kəndi*


*Şahbuz rayonu, Türkeş kəndi*


*Babək rayonu, Gülşənabad kəndi*


*Kəngərli rayonu, Böyükdüz kəndi*

### İtmişdir

Cəfərov Nəsimi Siman oğluna məxsus H3-6569904 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Sadayev Kamran Daşqın oğlunun adına verilmiş müvəqqəti hərbi vəsiqə və hərbi hissəyə buraxılış vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Ramazanov Xəlil Kazım oğlunun adına olan 525 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 17